1_Layout 1 15.04.2024 11:31 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 7 (671)

16 aprel 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# “DƏMİR YUMRUQ” QAFQAZDA YEGANƏ GÜCDÜR

## Brüssel görüşündə bölgə üçün növbəti təhlükə mənbəyi yaratmağa cəhd edənlər bu ali həqiqəti unutmamalıdırlar

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu “Dəmir yumruq” Qafqazda yeganə gücdür” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

Aprelin 5-də Brüsseldə keçirilən ABŞ-Aİ-Ermənistan görüşünün “nəticəsi” açıqlandı. Həm ABŞ, həm də Avropa İttifaqı Ermənistana yalnız maliyyə və informasiya dəstəyinin veriləcəyini bəyan etdi.

Aİ 4 il ərzində Ermənistana 270 milyon avro qrant, Birləşmiş Ştatlar isə 65 milyon dollardan çox yardım edəcək. Amma ABŞ dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Cozep Borel mətbuat qarşısında çıxışlarında Ermənistana “təhlükəsizlik təminatı” və ya hərbi yardım veriləcəyi barədə heç nə demədilər.

### Sönük görüşün pərdəarxası

Təbii ki, görüşdə hər iki məsələ də müzakirə edilib, ancaq mövzu qapalı dairədə aparıldığı üçün açıqlanması lazım bilinməyib. Çünki görüşdən öncə hərbi komponentlərin müzakirəsi istisna edilmirdi. Görüşdən sonra bu barədə heç bir məlumatın verilməməsi ilə guya Azərbaycanın təzyiqi nəticəsində bu məsələlərin gündəmdən çıxarılması görüntüsü yaratdılar. Yəni ABŞ və Aİ Azərbaycanı guya əmin etmək istədilər ki, Ermənistanla bağlı həyata keçirilməsi nəzərdə tutulan tədbirlər ölkəmizə qarşı yönəlməyib. Amma bu iddiaların Azərbaycanı qane etməməsi üçün ciddi əsaslar var.

Düzdür, görüş Ermənistanın təqdim etdiyi kimi ajiotaj yaratmadan, çox sönük keçdi. Lakin tərəflərin səsləndirdikləri bəzi fikirlərin subliminal mesajları Azərbaycan tərəfindən öncədən qeyd edilənlərin təsdiqi oldu.

Görüşün keçirildiyi günə qədər müzakirə edilən və söylənilən fikirlərin mütləq əksəriyyəti ABŞ və Avropa İttifaqının Ermənistan vasitəsilə regionda Rusiyaya qarşı “ikinci cəbhə” açması fonunda idi. Elə bu da təsdiqini tapdı. Ermənistan mətbuatının yaydığı məlumatlara əsasən, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen görüşdə Nikol Paşinyana xitabən deyib ki, “Biz sizin Rusiyaya qarşı sanksiyaların saxlanılması üzrə səylərinizi yüksək qiymətləndiririk, bu, xüsusilə öldürücü silahların Rusiyanın əlinə keçməməsini təmin edəcək”.



Bu, bir daha təsdiq edir ki, ABŞ və Aİ konkret olaraq Ermənistanı himayəsi altına alaraq bu ölkə vasitəsilə regionda Rusiya-Qərb qarşıdurmasında yeni cəbhə açmaq planı hazırlayır. Bu da əlbəttə ki, həm Cənubi Qafqazda sülhə təhdiddir, həm də ABŞ və Avropa İttifaqının geopolitik maraqları naminə regionu yenidən hərbi fəlakətlərə sürükləmək, yeni bastion və gərginlik mənbəyi yaratmaq cəhdidir.

Bu fakt İlham Əliyevin söylədiyi fikirlərin təsdiqidir. Azərbaycan Prezidenti keçirdiyi görüşlərdə bu məkrli planları ifşa edirdi. Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin deputatı və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşündə də İlham Əliyev həmin fikirləri bir daha səsləndirərək dedi ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər.

Əlbəttə ki, ABŞ və Qərbin regionda növbəti təhlükə mənbəyi yaratmaq cəhdləri Azərbaycanın da maraqlarına ziddir və bölgədə sülhün təminatına birbaşa təhdiddir.

### Avropa Komissiyasının prezidentinin gülüş doğuran fikirləri

Ermənistan mətbuatının yaydığı digər bir məlumata əsasən deyə bilərik ki, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen görüşdə gülüş doğuran fikirlər səsləndirib. Belə ki, diplomat Ermənistanın Qara dənizdən sualtı kabel vasitəsilə Avropaya enerji nəqlində maraqlı olduqlarını söyləyərək, “Biz Ermənistanın “yaşıl enerji” istehsalına və Gürcüstanla daha yaxşı əlaqələnməsinə dəstək verəcəyik. Avropaya təmiz bərpa olunan enerji gətirə biləcək Qara dəniz kabeli kimi mühüm infrastruktur layihələrinə investisiyalarımız olacaq” - deyib.

Maraqlıdır, görəsən, Avropa Komissiyasının prezidentinə bəlli deyilmi ki, bu layihənin təşəbbüskarı İlham Əliyevdir?! Azərbaycanın reallaşdırdığı bu layihə Avropa və Qafqaz regionunda enerji təhlükəsizliyini gücləndirmək, bərpaolunan enerji sektorunu inkişaf etdirmək və tranzit imkanlarını artırmaq məqsədi daşıyır.

Yəni Avropaya “yaşıl enerji”nin nəqli ideyası İlham Əliyevə məxsusdur və bununa bağlı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi ilə bağlı Strateji Tərəfdaşlıq sazişi də imzalanıb. Bu sənəd Azərbaycan və Rumıniya arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi layihəsinin reallaşdırılmasını təmin edəcək. Ermənistan bu layihəyə qoşulmaq üçün mütləq şəkildə Azərbaycanla sülh sazişi imzalamalıdır. Əks təqdirdə Ermənistan bu imkandan da məhrum olacaq.

### ABŞ və Aİ-nin regionda sülh istəmədikləri təsdiqini tapdı

Bu görüş bir daha onu da təsdiqlədi ki, Qərb Cənubi Qafqazda yaranmış yeni status-kvonu qəbul etmək istəmir və Azərbaycana qarşı əks-strategiya gerçəkləşdirməyə çalışır. Çünki Entoni Blinken, Ursula fon der Lyayen və Cozep Borelin görüşlə bağlı mətbuat qarşısında etdikləri çıxışlarında Ermənistanın Azərbaycanla sülh sazişi imzalamasının vacibliyi barədə heç nə demədilər. Bəlli oldu ki, görüşdə bu barədə ümumiyyətlə söhbət getməyib. Bu da əlbəttə ki, günlərdir Azərbaycan tərəfindən səsləndirilən həqiqətlərin təsdiqi oldu.

Fakt budur ki, İkinci Qarabağ müharibəsindən və Azərbaycanın öz ərazilərində keçirdiyi antiterror tədbirlərindən sonra ölkəmizə edilən təzyiqlər gündən-günə artır. Azərbaycan torpaqları 30 il işğal altında olarkən susan beynəlxalq qurumlar, qəbul etdikləri qətnamələrin icrasını təmin edə bilməyən təşkilatlar indi təhqirlə dolu çirkin sənədlər qəbul edirlər. AŞPA-dakı nümayəndə heyətimiz səsvermə hüququndan məhrum edildi. Ermənistan Fransanın maliyyəsi ilə silahlandırılır. Bütün bunlar faktlardır və İlham Əliyevin söylədiyi kimi, çox mənfi fəsadlara gətirə biləcək addımlardır.

Aprelin 5-də Mövlud Çavuşoğlu ilə görüşündə İlham Əliyev bir daha bu məsələyə toxunaraq bildirdi ki, Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki son günlər həm ABŞ-ın, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bu görüşün Azərbaycanın əleyhinə olmadığını inandırmağa çalışıblar. Ancaq Prezidentin də dediyi kimi, bütün ölkə ictimaiyyəti yaxşı bilir ki, bu tipli görüşlər Azərbaycanın və Cənubi Qafqazda işbirliyinin əleyhinədir.

Əlbəttə ki, bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür. Bu, həm də onu deməyə əsas verir ki, Ermənistanın silahlı forpost kimi formalaşdırılması cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək.

Amma bütün bunların fonunda ABŞ və Qərb bilməlidir ki, bu oyunların sonu Ermənistanın suriyalaşdırılmasına və son nəticədə parçalanmasına gətirib çıxaracaq. Brüssel görüşü başa çatandan dərhal sonra İrəvanda başlayan kütləvi etirazlar da bundan xəbər verir və həmin prosesin başlanğıcıdır.

# Daxili işlər naziri Hacıqabul rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 4-də Hacıqabul Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Hacıqabul rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Hacıqabul, Şirvan, Salyan və Neftçala şəhər və rayonlarından qəbula gələn 87 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

32 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 109 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**





2_Layout 1 15.04.2024 11:21 Page 1



# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏSİNDƏ OLUB

"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının "Ombudsman təsisatı və hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin və hərbi hissələrinin şəxsi heyəti ilə 2024-cü ildə keçirilməsi nəzərdə tutulan birgə görüşlərə dair tədbirlər planı"na əsasən, aprelin 4-də Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və qurumun əməkdaşları 16076 saylı hərbi hissədə olublar.



Görüşün keçirilməsində əsas məqsəd İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

İlk olaraq, hərbi hissənin ərazisi ilə tanış olan S.Əliyeva daha sonra tibb məntəqəsinə, ərzaq anbarına, əşya anbarına, yeməkxanaya və mühafizə bölüyündə şəxsi heyətlə görüşən ombudsman onlara xidmətə münasibətləri, ailə vəziyyətləri ilə əlaqədar suallar ünvanlayıb. İnsan hüquqları, bu əsnada hərbi qulluqçuların hüquqları, Ombudsman Aparatının bu istiqamətdə fəaliyyəti barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.

Görüşün sonunda insan hüquqları üzrə müvəkkil (ombudsman) S.Əliyeva hərbi hissənin komandiri, Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Nicad Bədəlova üzərində rəhbərlik etdiyi qurumun loqosu həkk olunan xalça hədiyyə edib.

**Mətbuat xidməti**

# STRATEJİ ARAŞDIRMALAR VƏ DÖVLƏT MÜDAFİƏSİNİ İDARƏETMƏ AKADEMİK KURSUNUN DİNLƏYİCİLƏRİ DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏSİ İLƏ TANIŞ OLUBLAR

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının nəzdində 1999-cu il martın 15-dən etibarən Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursu fəaliyyət göstərir. Akademik Kursun tədris proqramına müvafiq olaraq, kurs dinləyicilərinin güc nazirliklərinin hərbi hissələri və xüsusi təyinatlı təhsil ocaqları, eləcə də ölkəmizin strateji əhəmiyyətli sənaye müəssisələri, dövlət qurumları ilə tanışlığı təşkil edilir. Bu tanışlıq dinləyicilərin respublikamızın hərbi və iqtisadi potensialı haqqında təsəvvürlərinin genişlənməsində mühüm rol oynayır.





Ötən ay Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun dinləyiciləri 67987 saylı hərbi hissədə olublar.

Vətən Müharibəsi Qəhrəmanı, hərbi hissənin komandiri polkovnik Zəfər Yusibov qonaqları səmimi salamlayaraq, onlara hərbi hissənin keçdiyi şərəfli yol barədə geniş məlumat verməklə yanaşı, xidməti-döyüş fəaliyyətində istifadə olunan silah və texnika növləri ilə tanış edib.

Hərbi hissənin yaranma tarixi, strukturu, təlim-tədrisin və təchizatın vəziyyəti, eləcə də xidməti-döyüş fəaliyyətini əks etdirən brifinq təqdim olunub və dinləyiciləri maraqlandıran suallara cavab verilib.

Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetində kafedra rəisi polkovnik Araz Həsənov səmimi qarşılanmaya və hərbi hissənin xidməti-döyüş fəaliyyəti barədə geniş məlumatın əldə edilməsi üçün yaradılan şəraitə görə dinləyicilər adından Daxili Qoşunların və hərbi hissənin komandanlıqlarına öz minnətdarlığını bildirib. Polkovnik A.Həsənov Daxili Qoşunların istər döyüş qabiliyəti, istərsə də maddi-texniki təchizatına görə müasir hərbi birləşmələrdən biri olduğunu vurğulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

Məlumat üçün qeyd edək ki, daxili qoşunların baş idarəsində qərargahın əməliyyat və döyüş hazırlığı idarəsinin rabitə və AİS şöbəsinin rəisi polkovnik Asəf Cəfərov Akademik Kursun builki dinləyiciləri sırasındadır.

**kapitan Şahin Cəfərzadə**

# RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏDBİRLƏR TƏŞKİL EDİLİB

İslam dünyasına daxil olan ölkələrdə müqəddəs Ramazan bayramı hər il böyük təntənə ilə qeyd edilir. Özünəməxsus tolerantlığı və dini ənənələrə ehtiramı ilə fərqlənən Azərbaycanda da vətəndaşlarımız bu bayramı xoş ovqatla və həmrəylik şəraitində keçirirlər. Ramazan insanların xeyirxahlığa, mənəvi paklığa, öz nəfslərinə sahib olmağa səsləndikləri aydır.



Daxili Qoşunların hərbi hissələrində Ramazan bayramı günlərində müxtəlif tərbiyə işi tədbirləri keçirilib. Şəxsi heyətə bu bayramın tarixi və mənəvi xüsusiyyətləri barədə geniş məlumat verilib, dini mövzuda maarifləndirici söhbətlər aparılıb. Nümunəvi göstərici hərbi orkestrin mahnı ansamblının və hərbi hissələrin özfəaliyyət kollektivlərinin iştirakı ilə konsertlər təşkil olunub.

Hərbi qulluqçularımız tərəfindən bayram günlərində şəhid ailələrinə və qazilərə baş çəkilib.

**Mətbuat xidməti**

# XÜSUSİ TƏYİNATLILARIN GÜCÜ ONLARIN PEŞƏKARLIĞINDADIR

Silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin əsas vəzifələridir. Dəstənin şəxsi heyəti hər zaman xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirərək verilən tapşırıqların öhdəsindən layiqincə gəlir.



Dəstə komandirinin müavini-qərargah rəisi mayor Ceyhun Əsgərov bildirdi ki, xüsusi təyinatlı dəstənin şəxsi heyətinin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyələrinin, dünyagörüşlərinin düzgün formalaşmasına xüsusi önəm verilir.





Dəstənin fəaliyyətinin spesifikliyi barədə danışan mayor C.Əsgərov vurğuladı ki, təlimlərin müxtəlif hava şəraitində təşkil olunub keçirilməsi diqqət mərkəzində saxlanılır. O, xüsusi təyinatlıların hazırlığının hərbi hissə komandanlığı tərəfindən yüksək qiymətləndirildiyini, şəxsi heyətin döyüş tapşırıqlarını yerinə yetirməyə hər zaman hazır olduğunu bildirdi.

Mayor C.Əsgərov şəxsi heyətin yüksək döyüş hazırlığı ilə yanaşı, nizam-intizamın qorunub saxlanılması və sayıqlığın artırılmasının da nəzarətdə saxlanıldığını söylədi. O, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Malik Quliyevin əməyini vurğuladı.

Mayor M.Quliyev xüsusi təyinatlılarla aparılan tərbiyə işi tədbirləri barədə məlumat verdi. Bildirdi ki, şəxsi heyətlə aparılan tərbiyə işi tədbirlərinin əsasını hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik ruhunun aşılanması və kollektivdə yoldaşlıq münasibətlərinin inkişaf etdirilməsi təşkil edir.

Sonda o, şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş leytenant İsmayıl Qasımov, gizir Kamil Həsənov, gizir İsmayıl Əlizadə, baş çavuş Hümmət Xəliqov və çavuş Elşən Əlməmmədovun adlarını çəkdi, onların yoldaşlarına nümunə olduqlarını dedi.

**kapitan Şahin Cəfərzadə**

# MƏKTƏBLİLƏR ARASINDA "ŞAHİN" HƏRBİ-İDMAN OYUNLARI KEÇİRİLİB

Aprelin 4-də 99713 saylı hərbi hissədə "Şahin" hərbi-idman oyunlarının rayon mərhələsi keçirilib. Tədbirdə Bakı Şəhər Gənclər və İdman İdarəsinin Binəqədi rayonu üzrə gənclər və idman sektorunun müdiri Namiq Tarverdiyev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Elnur Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinin rəis müavini Nail Hacızadə, məktəb direktorları, çağırışaqədərki hazırlıq, fiziki tərbiyə müəllimləri, hərbi hissənin hərbi qulluqçuları və 28 məktəb komandası iştirak ediblər.





İlk olaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Çıxış üçün söz hərbi hissənin komandiri polkovnik Alim İsmayılova verilib. O, çıxışında bu gün respublikamızda gənclərin əsl vətəndaş kimi tərbiyə olunması və onlarda vətənpərvərlik hisslərinin formalaşması istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, cəmiyyətdə gənclərin rolu xüsusilə artmaqdadır. Ordu quruculuğu prosesində də gənclərimizin rolu danılmazdır. Belə ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsasını məhz gənclər təşkil edirlər. Bu baxımdan onların düzgün istiqamətdə maarifləndirilməsi, hərbi-vətənpərvərlik tərbiyəsinin bundan sonra da gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Hərbçilərimizdə böyük ruh yüksəkliyinin olması, düşmən üzərində qazanılan möhtəşəm qələbə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücünün, vətənpərvərlik ruhunun təcəssümüdür.

Çıxış edən Namiq Tarverdiyev "Şahin" hərbi-idman oyunlarının gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, onların hərbi-fiziki hazırlığının inkişaf etdirilməsi baxımından çox əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Həmçinin Elnur Məmmədov da öz çıxışında "Şahin" hərbi-idman oyunlarının gənclərimiz üçün vacibliyini vurğulayıb, komandalara hər birinə uğurlar arzulayıb.

Qeyd edək ki, "Şahin" hərbi-idman oyunlarında 28 ümumtəhsil məktəb komandasından 392 şagird iştirak edib. Oyunların nəticələrinə əsasən Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin komandası 1-ci, 100 nömrəli tam orta məktəbin komandası 2-ci, 299 nömrəli məktəb-liseyin komandası 3-cü yerləri tutublar.

Məlumat üçün bildiririk ki, oyunların qalib komandası Bakı şəhəri üzrə keçiriləcək zona birinciliyinə vəsiqəni təmin edib.

**kapitan Nigar Ağayeva**

# İSTEHKAMÇILARIN PEŞƏ VƏRDİŞLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ DİQQƏTDƏ SAXLANILIR

67987 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıq-sayıqlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.



Yarımqrupun komandiri-baş istehkamçısı baş gizir Sənan İbayev söylədi ki, təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsi yarımqrupun əsas vəzifələridir.

O qeyd etdi ki, qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Hər həftənin şənbə günü isə mühəndis və kimya xidmətinin rəisi mayor Polad Şirinov tərəfindən ixtisas hazırlığı üzrə nəzəri və praktiki məşğələlər təşkil olunur.

Baş gizir S.İbayev istehkamçıların döyüş hazırlıqlarının ayda iki dəfə hərbi hissə komandiri və iki dəfə xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Fariz Məmmədov tərəfindən yoxlanıldığını da sözlərinə əlavə etdi.

Baş gizir S.İbayev yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş Asiman Həmzəyev, çavuşlar Ağabəy Ağacanov, Ülfət İbrahimov, Araz Məmmədzadənin adlarını çəkdi, onların vəzifələrinin icrasına məsuliyyətlə yanaşdıqlarını söylədi.



Xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant F.Məmmədov da istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, hərbi qulluqçuların qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduqlarını bildirdi.

**kapitan Xədicə Hacızadə**

3 - 2_Layout 1 13.04.2024 9:01 Page 1



Şəhidlərimiz

# DÖYÜŞ MEYDANINDA CANINI FƏDA EDƏRƏK VƏTƏNPƏRVƏRLİK ÖRNƏYİ GÖSTƏRDİ...

Azərbaycan öz torpaqlarının bir hissəsinin Ermənistan tərəfindən işğal olunması, xeyli sayda vətəndaşının məcburi köçkün düşməsi faciəsini yaşayıb, ərazi bütövlüyünün bərpa edilməsi, döyüş meydanında hərbi zəfər qazanılmasınadək çətin sınaqlardan keçib. 44 günlük Vətən müharibəsi zamanı şanlı Silahlı Qüvvələrimiz erməni ordusu üzərində misilsiz qələbəyə imza atıb. Xalqımız Vətən naminə qurbanlar verməyə qadir olduğunu, habelə şəhidlərinin qanlarını yerdə qoymadığını bütün dünyaya nümayiş etdirib. Şəhidlərin və qazilərin uğrunda döyüşdükləri yurdlarımız daha yağı tapdağında deyil. Düşmənin xarabalığa çevirdiyi şəhər və kəndlərimiz öz sahiblərinə qovuşub.

"Dəmir yumruq" əməliyyatının davam etdirildiyi antiterror tədbirləri nəticəsində Qarabağda erməni separatizmi süquta uğrayıb, tarixi bölgəmiz terrorçulardan təmizlənib. Antiterror tədbirlərinin uğurla həyata keçirilməsinə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də layiqli töhfəsini verib. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin 12 nəfər hərbi qulluqçusu həmin vaxt döyüş tapşırığını yerinə yetirərkən şəhadətə yüksəlib. Onlardan biri gizir Əhmədov Elvin Qələndər oğludur.

O, 1990-cı il yanvarın 15-də Qazax rayonunun Qarapapaq kəndində doğulub. Babası Qələndər Əhmədov Elvini uşaq ikən öz himayəsinə götürüb, bu səbəbdən sənədlərdə atası olaraq onun adı qeyd edilib. Q.Əhmədov 1997-ci ildə dünyasını dəyişib. Elvinin valideynləri Əhməd Əhmədov və Təranə Əhmədovadır, Pərvanə adlı bir bacısı var. Doğma kəndində böyüyərək boya-başa çatıb. Ailəsindən verilən məlumata görə, Elvin istiqanlı, qayğıkeş, ədəbərkanlı, səbrli, böyük-kiçik yerini bilən, valideyn öyüd-nəsihətinə həssas yanaşan, sadəliyi, əliaçıqlığı, dürüstlüyü ilə seçilən, savadlı gənc olub. Əvvəllər hərbi komissarlıq adlandırılan qurumda uzun illər xidmət etmiş, sonra isə orta məktəbdə çağırışaqədərki hazırlıq fənni üzrə müəllim işləmiş babası Q.Əhmədovun ömür yolu Elvin üçün vətənpərvərlik örnəyi idi.

Qazax şəhərində yerləşən Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənlər Təmayüllü Məktəb-Liseydə 11 il təhsil alıb. Ən çox riyaziyyata maraq göstərib, bununla yanaşı, digər fənlər üzrə biliklərə də həvəslə yiyələnib. Xalqımızın tarixi, hərbi ənənələri, mədəni irsi mövzularında məlumatlar həmişə onun diqqətini çəkib. Yeniyetmə yaşından idmanın həndbol növünü bəyənib və məharətlə oynayıb.

2007-2011-ci illərdə Elvin Gəncədə yerləşən Azərbaycan Texnologiya Universitetində ali təhsil alaraq Qida mühəndisliyi fakültəsini bitirib, ona turizm və sosial-mədəni servis xidməti ixtisası üzrə bakalavr dərəcəsi verilib.

2011-ci ilin iyul ayında Elvin müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mühafizə alayında xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2012-ci ilin iyul ayında ehtiyata buraxılıb.

Hərbi xidmətdən qayıtdıqdan bir müddət sonra o, həyatını hərbçi peşəsinə bağlamağı qərarlaşdırıb. Bu qərarını valideynləri də dəstəkləyiblər. Beləliklə, DİN-in Daxili Qoşunlarının komandanlığına etdiyi müraciət müsbət cavablandırılıb. 2013-cü ilin dekabr ayından etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun meteomüşahidəçi-atıcısı, xüsusi vasitələrin tətbiqi qrupunun komandiri və yarımqrup komandiri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. Xidmət dövründə "gizir" hərbi rütbəsinədək yüksəlib. Şəxsi işində heç vaxt intizam cəzası barədə qeyd olmayıb, nümu-





nəvi xidməti nəzərə alınaraq komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Funksional vəzifələrinin və qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlib. Silahdaşlarının hörmətini qazanıb, hərbçi peşəsinin şərəfini daim uca tutub. Qrup, habelə yarımqrup komandiri kimi tabeliyindəki şəxsi heyətə münasibətdə tələbkarlıq və qayğının vəhdətini qoruyub saxlayıb. Həm özü bilik və bacarıqlarını təkmilləşdirməyə can atıb, həm də cavabdehlik daşıdığı şəxsi heyəti buna həvəsləndirib. Müxtəlif kütləvi tədbirlərdə ictimai qaydanın və təhlükəsizliyin qorunması ilə bağlı tapşırıqları məsuliyyətlə icra edib.

2020-ci ilin mart ayından başlayaraq Gəncə şəhəri və ətraf rayonların ərazilərində koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsi üzrə xidmətə cəlb olunaraq sayıqlıq göstərib.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi dövründə Elvin Gəncə şəhəri və Gədəbəy rayonunda komendant postlarında xidmət aparıb, həmçinin silahdaşları ilə birgə ön cəbhəyə göndərilməyə hazır vəziyyətdə olub. Həmin vaxt müharibənin od-alovundan uzaqda yerləşən Gəncə düşmənin raket atəşlərinə məruz qalıb, dinc sakinlərin ölümü, dağıntılar hərbi qulluqçumuzu dərindən sarsıdıb.

Qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra, ayrı-ayrı tarixlərdə Elvin işğaldan azad edilmiş Zəngilan, Laçın, Kəlbəcər rayonlarına, Tərtər rayonunun Suqovuşan kəndinə və Şuşa şəhərinə təhlükəsizlik tədbirlərinin təmini məqsədilə qısamüddətli ezam olunub. Verilən tapşırıqları layiqincə yerinə yetirib.

Daxili işlər nazirinin 9 mart 2023-cü il tarixli müvafiq əmri ilə gizir E.Əhmədov 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Vətən müharibəsinin yekunu olaraq kapitulyasiya aktını imzalayan məğlub Ermənistan sonrakı dövrdə Qarabağdan ordusunun qalıqlarını çıxarmayıb, separatçıların terrorçu dəstələri tərk-silah edilməyib. 2023-cü il sentyabrın 19-dan 20-dək bölgədə ordumuz tərəfindən Daxili Qoşunların iştirakı ilə keçirilən lokal xarakterli antiterror tədbirlərinə polkovnik-leytenant Rəşad Hüseynovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsi də qatılıb. Sentyabrın 19-dan 20-nə keçən gecə dəstənin bir qrup şəxsi heyəti Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndi (hazırda bu kənd Ağdərə rayonuna daxildir) istiqamətinə avtomobillərlə hərəkətə başlayıb. Öncədən müəyyən edilən hüdudlara hərəkət zamanı erməni işğalçılarının ilk hücumu dəf olunaraq atəş nöqtələri susdurulub. Döyüş tapşırığının icrasını davam etdirən hərbi qulluqçularımız Vəngli kəndinə bir neçə kilometr məsafə qaldıqda düşmən pusqusuna düşüblər. Yolun kənarlarından müxtəlif çaplı silahlarla qəfil atəşə məruz qalmalarına baxmayaraq, döyüşçülərimiz yerindəcə mövqeləniblər, onların qətiyyətli cavab atəşi sayəsində düşmən itki verib və geri çəkilib. Bu döyüşdə cəsurluq göstərən Elvin bədəninin müxtəlif nahiyələrindən ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. Dəstə komandiri və bəzi döyüşçülər üçün də bu, son döyüş, şəhadət məqamı idi.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin müavini-qərargah rəisi kapitan Həmid Ağayev, həmin dəstənin post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, sabiq hərbi qulluqçumuz, Şəmkir rayon polis şöbəsinin cinayət-axtarış bölməsinin əməliyyat müvəkkili polis baş leytenantı Ramin Əliyev, ehtiyatda olan gizir Səxavət Zeynalov, 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin heyət rəisi gizir Elcan Yusifzadə və xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı əsgər Nicat Mamedov şəhidin xidmət və döyüş yolu barədə mənə gərəkli məlumatları verdilər, öz xatirələrini bölüşdülər. Onların bildirdiklərinə görə, Elvin Vətənə, dövlətə sadiq, peşəkar, müsbət fərdi keyfiyyətlərə malik, öz peşəsi ilə qürur duyan, xidmətdə əzmkarlığı ilə fərqlənən, silahdaşlarının güvənini qazanan hərbi qulluqçu olub. Meteomüşahidəçi-atıcı vəzifəsindən komandir heyətinin sıralarına yüksəlməsi onun çalışqanlığının, bilik və bacarıqlarını inkişaf etdirməsinin, döyüş, habelə mənəvi-psixoloji hazırlığında nailiyyətlərin nəticəsi idi. Dəstənin silahları, xüsusi vasitələri və texnikalarından istifadə edilməklə keçirilən göstərici təlimlərdə də fəal iştirakı komandanlığın diqqətini cəlb edib.

Antiterror tədbirlərinin iştirakçısı olmuş silahdaşları vurğuladılar ki, Elvin düşmənə qarşı mərdliklə vuruşub, qorxmadan ölümə sinə gərib.

Gəncə regional "Asan xidmət" mərkəzi tərəfindən verilən 6 oktyabr 2023-cü il tarixli ölüm haqqında şəhadətnamədə Elvinin 20 sentyabr 2023-cü ildə Kəlbəcər rayonunda hərbi əməliyyat nəticəsində odlu silahla və digər adi silah növləri ilə törədilmiş zədələnmələr nəticəsində şəhid olduğu faktı öz əksini tapıb.

Şəhid 2023-cü il sentyabrın 21-də Qazax rayonunun Qarapapaq kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamları ilə gizir E.Əhmədov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qarapapaq kəndi üzrə şəhidlərin ümumi siyahısında 10 nəfərin adı qeydə alınıb. Kənddəki şəhid Əli Əhmədov adına ümumi orta məktəbin tədris siniflərindən biri Elvinin adını daşıyır.

Qazax şəhərində adsız küçələrdən birinə döyüşçünün adı verilib. Şəhərin Şəhidlər xiyabanındakı mərmər lövhəyə igidin şəkli həkk olunub. Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Bakı Dövlət Universitetinin Qazax filialındakı şəhidlər guşəsində Elvinin şəkilləri var. Qazax şəhərində yerləşən Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənlər Təmayüllü Məktəb-Liseyin həyətində şəhid məzunların xatirəsinə abidə-bulaq kompleksi yaradılıb.

"Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayılın müəllifi olduğu "Vətəni canından əziz bilənlər" kitabında Elvinin ömür yolu işıqlandırılıb.

Əhmədovlar ailəsi Qarapapaq kəndində yaşayır. Ailə tərəfindən evdə xatirə guşəsi düzəldilib. Şəhidin atası Ə.Əhmədov işləmir, anası T.Əhmədova isə Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənlər Təmayüllü Məktəb-Liseydə musiqi müəllimidir. Şəhidin bacısı Pərvanə də müəllimdir, Qazax şəhərindəki İsmət Qayıbov adına 3 saylı tam orta məktəbdə işləyir.

Elvin 2019-cu ilin avqust ayında Aişə xanımla ailə qurub. Bu xoşbəxt ailədə qızı Əsmər dünyaya gəlib. A.Əhmədova Azərbaycan dili və ədəbiyyat müəllimidir, hazırda Qarapapaq kəndindəki ümumi orta məktəbin direktoru vəzifəsini icra edir. Doğmalarının hər birinin yaddaşında Elvinli günlərin xoş xatirələri dərin iz qoyub. O, mehriban övlad, qardaş, ailə başçısı və ata kimi əzizlərinin həyatına fərəh gətirib, onlardan sevgisini əsirgəməyib.

Valideynləri Elvinin həyatda xoşbəxt olmasını, layiqli məqama ucalmasını arzulayıblar. Vətən naminə fədakarlıq göstərən qeyrətli oğulun taleyinə əbədi ölümsüzlük - şəhidlik yazılıb.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# HƏRBİ HİSSƏDƏ DİNİ MAARİFLƏNDİRMƏ MÖVZUSUNDA SEMİNAR TƏŞKİL OLUNUB

Martın 28-də 99713 saylı hərbi hissədə "Dini radikalizm və ekstremizm milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi" mövzusunda seminar keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini maarifləndirmə işinin təşkili şöbəsinin məsləhətçisi Saleh Aslanov və ilahiyyatçı Ağa Hacıbəyli seminarda iştirak ediblər.



Şəxsi heyətin iştirakı ilə keçirilən seminarı giriş sözü ilə açan hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Elsevər Fətəliyev hərbi



hissələrdə bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan ictimai-siyasi sabitliyinə görə nümunəvi dövlətlərdəndir və qazandığımız bu uğurları həzm edə bilməyən dairələr zaman zaman din pərdəsi altında öz ideologiyalarını burada yaymağa, cəmiyyətimizdə dini zəmində ayrı-seçkilik toxumları səpməyə çalışırlar. Ancaq onların bu cəhdləri hər zaman iflasa uğrayıb, çünki Azərbaycan xalqı dinin bölücü deyil, birləşdirici amil olduğunu yaxşı bilir və onu özünün mənəvi dəyəri kimi qoruyur.

Daha sonra çıxış edən dövlət qurumunun yetkilisi S.Aslanov milli-mənəvi dəyərlərin hər bir cəmiyyət üçün birləşdirici amil olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinin hüquq bərabərliyini təmin edir. Müxtəlif dairələrin Azərbaycanda milli-dini zəmində ayrı-seçkilik yaratmaq cəhdlərinin hər zaman olduğunu deyən məruzəçi Vətən müharibəsinin davam etdiyi günlərdə də bunun müşahidə edildiyini vurğulayıb. Ancaq Azərbaycan xalqı öz müdrikliyini bir daha nümayiş etdirərək sahib olduğu vəhdətin pozulmasına imkan verməyib və şanlı ordusuna, Müzəffər Ali Baş Komandanına güvənib, bir yumruq kimi birləşərək erməni faşizmini məhv edib.

Seminarın gedişatında, həmçinin Vətənə xidmətin ülviliyindən danışan ilahiyyatçı Ağa Hacıbəyli bu şərəfli missiyanın daşıyıcıları qarşısında çıxış etməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan xalqı hər zaman tolerantlığı ilə seçilib, bütün xalqların, dinlərin nümayəndələrinə qucaq açıb, yardım göstərib. Ancaq təəssüf ki, özü hər zaman haqsızlığa, ədalətsizliyə, soyqırımlara məruz qalıb. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də dediyi kimi, torpaqlarımız işğalda ikən erməni faşizminə qarşı beynəlxalq müstəvidə heç bir addımın atılmaması bir daha sübut etdi ki, ikili standartlarla idarə olunan müasir dünyada haqlı olmaq hələ hər şey demək deyil, haqqını almaq üçün mütləq güclü olmalısan. 44 günlük Vətən müharibəsində qazanılan Böyük Zəfər, ərazi bütövlüyümüzün bərpası çoxlarına dərs oldu və göstərdi ki, Azərbaycan xalqı öz müqəddəratını özü müəyyən edir, qarşısında duran bütün hədəfləri dəf etməyə qadirdir.

Sonda hərbi qulluqçularımızı maraqlandıran suallar cavablandırılıb.

**kapitan Nigar Ağayeva**

# DÖYÜŞ RUHLU VƏ QƏTİYYƏTLİ XÜSUSİ TƏYİNATLI

67987 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından olan baş çavuş İxtiyar Hüseynov 1993-cü ilin iyul ayının 11-də Gədəbəy rayonunun Şahdağ kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı kənddəki şəhid Maarif Əsgərov adına tam orta məktəbdə alıb. 2012-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılan İxtiyar Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. 2013-cü ilin iyul ayında müddətli həqiqi hərbi xidmətini başa vuran İxtiyar 2014-cü ilin dekabr ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarındadır. Müxtəlif vəzifələrdə etimadı doğruldan hərbi qulluqçumuz 2018-ci ilin noyabr ayından hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun pulemyotçusu vəzifəsində xidmət edir. Hissə və dəstə komandanlıqları tərəfindən bacarıqlı, intizamlı hərbi qulluqçu kimi xarakterizə olunur. Funksional vəzifələrinin öhdəsindən layiqincə gəlir. Əzmkar xidmətinə görə dəfələrlə mükafatlandırılıb.

Baş çavuş İ.Hüseynov ona təhkim olunmuş silahın xüsusiyyətlərini, ondan istifadə qaydalarını mükəmməl bilir və praktiki vərdişlərini davamlı şəkildə təkmilləşdirir. Hərbi işi vicdanla öyrənmək və döyüş hazırlığını hər zaman yüksəltmək üçün əlindən gələni əsirgəmir.



Hərbi qulluqçumuz 2020-ci ilin sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində, eləcə də 2023-cü ilin 19-20 sentyabr tarixlərində erməni terrorçularına qarşı keçirilən lokal xarakterli antiterror tədbirlərində iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edək ki, cəsur hərbi qulluqçumuzun qardaşı, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rafiz Hüseynov Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. 2020-ci ilin avqust ayında ailə quran İxtiyar anadan olan övladına şəhid qardaşı Rafizin adını verib.

Baş çavuş İ.Hüseynov bundan sonra da xüsusi təyinatlı olaraq vəzifələrini ləyaqətlə icra edəcəyini bildirdi.

Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən silahdaşımıza bundan sonrakı həyatında uğurlar diləyirik.

**kapitan Xədicə Hacızadə**

# DÖYÜŞ XİDMƏTİNDƏ LAYİQİNCƏ FƏRQLƏNƏN BÖLÜK

99713 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bölük komandiri kapitan Tural Nəsirli bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, eləcə də hərbi hissənin döyüş bayraqlarının mühafizə və müdafiəsini təşkil edən qarovulların üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Onların sağlamlıqlarını, mənəvi-psixoloji durumlarını əsas şərt kimi dəyərləndirən kapitan T.Nəsirli digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.









Xidmətə cəlb edilənədək, müvafiq plana əsasən, bölük komandiri və onun tərbiyə işləri üzrə müavini tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: "Hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili də diqqət mərkəzindədir".

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin müavinlərinin yaxından iştirak etdiyini deyən kapitan T.Nəsirli onların bacarıqlı və çalışqan zabit olduqlarını bildirdi.

Bölük komandiri layiqli xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan gizir Zərbalı Cəbiyevin, çavuş Marat Saruxanovun, baş əsgər Eşqin Babayevin, əsgərlər Əlibala Günəşlinin və Əli Zülfəliyevin adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# HƏRBİ HİSSƏNİN YEMƏKXANASI MÜASİR STANDARTLARA CAVAB VERİR



25032 saylı hərbi hissənin əsgər yeməkxanasının fəaliyyəti yüksək səviyyədədir. Hərbi hissə komandanlığının xüsusi nəzarətində olan əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti, eləcə də buradakı səliqə-sahman, gigiyenik qaydaların gözlənilməsi, yeməyin hazırlanması ilə məşğul olan əsgər aşpazların və işçilərin xüsusi geyimdə olmaları müvafiq qaydalara tam cavab verir. Hərbi qulluqçuların təmiz şəraitdə qidalanmaları sözsüz ki, onlara göstərilən diqqət və qayğının təzahürüdür.

Hərbi hissənin ərzaq xidmətinin rəisi mayor Ramil Əbdulrəhimov şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli mətbəximizin ləziz xörəklərinə üstünlük verilir. O, şəxsi heyətin qidalanmasının daxili işlər nazirinin müvafiq əmrinin tələbləri əsasında təşkil olunduğunu söylədi.



Onun sözlərinə görə, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunlar komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu məqsədlə, yeməklərin hazırlanmasında kurs keçmiş əsgər aşpazlarla bərabər işçi qadınların əməyindən də istifadə olunur. Ərzaq xidmətinin rəisi onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların keyfiyyətlə hazırlandığını nəzərə çatdırdı.

**kapitan Xədicə Hacızadə**

# TİBB MƏNTƏQƏSİ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİ UĞURLA İCRA EDİR

Döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasının vacib komponentlərindən biri də şəxsi heyətin sağlamlığının qorunmasıdır. Bu baxımdan Daxili Qoşunların komandanlığı hərbi hissələrdə tibbi təminatın yüksək səviyyədə olmasına xüsusi diqqət yetirir.

Daxili Qoşunların Təlim mərkəzində xidməti ezamiyyətdə olarkən tibb məntəqəsinə də baş çəkdim, buranın fəaliyyəti ilə yaxından tanış oldum.

Təlim mərkəzində tibb məntəqəsinin rəisi gizir Eldar Tağızadə məntəqənin fəaliyyəti barədə geniş məlumat verdi. Bildirdi ki, tibb məntəqəsi fəaliyyəti baxımından digər hərbi hissələrin məntəqələrindən fərqlənir. Təlim mərkəzinin bölüyündə sanitar-gigiyena qaydalarının yerinə yetirilməsinə, müalicə-profilaktika və epidemiyaya qarşı



tədbirlərin keçirilməsinə, tibbi əmlakla təmin olunmasına və tibb məntəqəsinin şəxsi heyətinin hazırlığına cavabdehlik daşıyan gizir E.Tağızadə burada hərbi qulluqçuların say azlığına görə stasionar müalicənin olmadığını bildirdi. Qeyd etdi ki, tibb təminatı 16075 saylı hərbi hissədən təşkil olunur. Tibb məntəqəsinin sanitar-sürücüsü əsgər Rəvan Məmmədzadənin və sanitar-təlimatçı, dezinfektor əsgər Loğman Allahverdiyevin verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşdıqlarını sözlərinə əlavə etdi.

Hərbi qulluqçuların sağlamlıqlarının keşiyində durmağın məsuliyyətini nəzərimizə çatdıran gizir E.Tağızadə fəaliyyətində istənilən çətinliyə dözməyə hazır olduğunu xüsusi vurğuladı: "Bu gün komandanlıq tərəfindən mənə göstərilən etimad həvəsləndirici amildir və düşünürəm ki, hər birimiz öz işimizdə diqqətli olmaqla, peşə vərdişlərini təkmilləşdirməklə xidmətimizə töhfə vermiş oluruq. Tibb personalı olaraq şəxsi heyətin sağlamlığını qorumaq hər birimizin müqəddəs borcudur. Təbii ki, bu istiqamətdə əməyim olduğuna görə həm sevinir, həm də qürur duyuram".

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR

·YENİLİKLƏR·

### ABŞ Yunanıstana 35 ədəd UH-60 "Black Hawk" üçün "yaşıl işıq" yandırıb

ABŞ Nümayəndələr Palatasının Silahlanma Komitəsi Yunanıstana 35 ədəd UH-60 "Black Hawk" ümumi məqsədli helikopterlərinin satışını təsdiqləməyə qərar verib.

Ordu.az xəbər verir ki, "Black Hawk"lar hazırda Yunanıstan Hərbi Hava Qüvvələrinə (HHQ) aid olan 56 ədəd köhnə model UH-1 "Huey"i əvəz edəcək.

Logistik dəstək olmadığı üçün 1969-cu ildə alınmış tək mühərrikli "Huey"lər Yunanıstan HHQ tərəfindən son dərəcə məhdud şəkildə istifadə olunur.



*İdman*

# DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI BİRİNCİ YERƏ LAYİQ GÖRÜLÜB



Martın 29-da Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində daxili işlər orqan və hissələri arasında sambo güləşi üzrə yarış keçirilib.

Daxili İşlər Nazirliyinin birinciliyi uğrunda təşkil edilən yarışda Daxili Qoşunların yığma komandası 5 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Məlumat üçün bildirək ki, 13 komandanın qatıldığı yarışda Daxili Qoşunların komandası 1-ci, Sumqayıt Şəhər Polis İdarəsinin komandası 2-ci, Əlahiddə Çevik Polis Alayının komandası 3-cü yerə layiq görülüblər. Komandalar müvafiq dərəcəli kubokla, fərdi birinciliyin qalibləri isə medal və diplomlarla mükafatlandırılıblar.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# "MÜTALİƏ BİR MƏDƏNİYYƏTDİR"

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsi, bilik səviyyələrinin artırılması, onların maarifləndirilməsi komandir heyətinin marağında olan məsələdir. Bu mənada Daxili Qoşunların hərbi hissələrində olan kitabxanalara şəxsi heyətin cəlb edilməsi, kitabxana fondunun zənginləşdirilməsi kitabxana rəislərinin üzərinə düşən məsuliyyətdir desək, heç də yanılmarıq.



16075 saylı hərbi hissəyə xidməti ezamiyyətimiz zamanı diqqətimizi yaxşı mənada cəlb edən sahələrdən biri də hissənin kitabxanası oldu.

Hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin kitabxana rəisi-kitabxanaçısı çavuş Səadət Mikayılova funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır. O, 1995-ci ildə Abşeron rayonunun Xırdalan şəhərində doğulub. 2001-2012-ci illərdə Xırdalan şəhərindəki 1 saylı tam orta məktəbdə təhsil alıb. Orta təhsilini uğurla başa vuran Səadət 2012-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya və təhsildə psixoloji xidmət fakültəsinə qəbul olunub. 2016-cı ildə ali təhsilini başa vurub, lakin iş fəaliyyəti olmayıb. 2019-cu ildə 16075 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin kitabxana rəisi-kitabxanaçısı vəzifəsinə xidmətə qəbul olunub.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan qadın hərbi qulluqçumuz hərbi hissəyə gəldiyi ilk gündən öz təşəbbüsü ilə kitabxana fondunun zənginləşdirilməsində əlindən gələni əsirgəməyib. Hazırda hissənin kitabxanasında müxtəlif janrlı ədəbiyyatların olması şəxsi heyətin mütaliəyə marağını artırır. Xidməti ezamiyyətdə olarkən bunun bir daha şahidi olduq.

O, abunə və oxu salonunda oxuculara şərait yaradılmasını, kitabxana işinin uçotunun aparılmasını, müəyyən edilmiş hesabatların təqdim edilməsini və kitabxana fondunun inventarlaşdırılmasını təmin edir. Həmçinin kitabxanada səliqə-sahmana, yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına hər zaman ciddi yanaşan çavuş S.Mikayılova bu işləri sevərək icra etdiyini deyir: "Düşünürəm ki, kitabların hər birinin öz dili var. Mütaliə isə bir mədəniyyətdir desək, yerinə düşər. Belə bir ortamda işləmək insana ancaq zövq verə bilər".

**kapitan Nigar Ağayeva**

# NÜMUNƏVİ RADİOTELEFONÇU

99713 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Samir Bədiyevdir. O, 2023-cü ilin oktyabr ayından 99713 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin noyabr ayında hərbi hissədə rabitə üzrə təşkil edilmiş müvafiq kursu müvəffəqiyyətlə bitirərək təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.



Əsgər S.Bədiyev 1999-cu ilin fevral ayının 8-də Şəki rayonunun Birinci Biləcik kəndində anadan olub. 2005-2016-cı illərdə doğma kəndində yerləşən tam orta məktəbdə təhsil alıb. 2016-2021-ci illərdə Xəzər Universitetində riyaziyyat və informatika müəllimi ixtisasına yiyələnib. 2021-2023-cü illərdə Azərbaycan Texniki Universitetində informasiya texnologiyaları və telekommunikasiya mühəndisi ixtisası üzrə magistr pilləsində təhsilini davam etdirib.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi gündəlik yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Əsgər S.Bədiyev xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətində praktiki bacarıqlarını təkmilləşdirir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**kapitan Şahin Cəfərzadə**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir Etibar Qasımovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000